**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZADLIQDAN MƏHRUMETMƏ YERLƏRİNDƏ QADIN MƏHKUMLARIN HÜQUQLARININ MÜDAFİƏSİ: BEYNƏLXALQ STANDARTLAR VƏ MİLLİ QANUNVERİCİLİK

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"
Elm sahəsi: Hüquq

İddiaçı: **Günay Namik qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Hüquq elmləri doktoru, professor
**Əmir Ibrahim oğlu Əliyev**

Hüquq üzrə fəlsəfə doktoru
**Gülnaz Aydın qızı Rzayeva**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Vüqar Qurban oğlu Məmmədov**

Hüquq üzrə fəlsəfə doktoru, dosent
**Səmirə Əli qızı Eyvazova**

Hüquq üzrə fəlsəfə doktoru, dosent
**Gülnaz Rəfail qızı Ələsgərova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 07 aprel 2023-cü il tarixli 3-50/3-1-1-66/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent

_______________ **Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent

_______________ **Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor

_______________ **Elbar Əli oğlu Əliyev**

BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm
"05" 04 20 24

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya üzrə məhkumların sayının durmadan artması beynəlxalq cəza sektorunda mövcud müzakirələrdə ən diqqət çəkən fakt olaraq qalır. World Prison Brief-in məlumatlarından da görünür ki, dünya həbsxanalarının əhalisi ümumi əhalidən daha yüksək sürətlə artır. Qadın məhkumların ümumi həbsxana əhalisinin kiçik bir hissəsini təşkil etməsinə baxmayaraq, son illərdə qadınların həbsində də nəzərəçarpacaq artım müşahidə olunur. Məsələn, 2000-ci ildə Azərbaycanda bu say 272 nəfər təşkil edirdisə, 2022-ci ilin məlumatlarında 589 nəfərdir ki, bu da ümumi əhalinin 2,7 %-ni təşkil edir.[1]

Kişi və qadın məhkumların faiz nisbətinin dəyişməsi qadın məhkumların spesifik ehtiyaclarının ödənilməsi baxımından demək olar ki, bütün penitensiar sistemlərin çatışmazlıqlarını ortaya qoyur. Belə ki, beynəlxalq təşkilatlar tərəfindən müəyyən olunmuş beynəlxalq standartlar həbsdə olan bütün şəxslərə eyni dərəcədə şamil edilir. Lakin praktiki olaraq qadınlara qarşı ayrı-seçkilik hallarına tez-tez rast gəlinir və bu standartlar heç də həmişə tətbiq oluna bilmir. Ona görə də cəzaçəkmə müəssisələrində idarəetmə təcrübəsinin dəyişdirilməsinə, qadınların saxlanma şəraitinin yaxşılaşdırılmasına, onların özünəməxsus xüsusiyyətlərinin nəzərə alınmasına dair tövsiyələrin işlənib hazırlanmasına ehtiyac vardır.

Azadlıqdan məhrum etmə yerlərində fundamental hüquqların qorunması və həbsxana şəraitinin yaxşılaşdırılması dünyanın hər yerində bir sıra təşkilatların əsas məqsədidir. Həbsdən istifadənin azaldılması, həbsin humanistləşdirilməsi və onun istifadəsində ayrı-seçkilik və bərabərsizliklərin qarşısını almaq üçün davamlı mübarizə həbsxananın özünün tarixi qədərdir. Qeyd etmək lazımdır ki, ictimai rəy cinayət törədənlərə qarşı o qədər də yaxşı münasibət göstərmir, cəmiyyət üzvləri isə xüsusən də sosial bərabərsizliklərə qarşı sərt olmaq istəmədikləri və ya necə olacağını bilmədikləri zaman cinayətə qarşı sərtliyini daha çox nümayiş etdirməyə hazırdırlar. Başqa sözlə, qadın məhkumların hüquqları ötən əsrdə aktual mövzu

---

[1] World Prison Brief data. https://www.prisonstudies.org/country/azerbaijan

olmamışdır. Bununla belə, insan hüquqları müdafiəçilərinin kömək üçün müraciət edə biləcəyi ümumi mədəniyyət və alətlər dəsti həmişə mövcud olmuşdur: mədəniyyət və beynəlxalq insan hüquqları qanunvericiliyinin sistemi, qlobal miqyasda insan hüquqlarını təşviq etmək üçün hazırlanmış beynəlxalq qanunlar toplusu, regional və daxili səviyyələr.[2]

Cəza icra qanunvericiliyinin müddəaları ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquq və qanuni mənafelərinin həyata keçirilməsi təcrübəsi arasındakı uyğunsuzluq məhkumların islah prosesində, xüsusilə də sosial adaptasiya zamanı ciddi çətinliklər yaradır. Bu da tədqiqat mövzusunun aktuallığını bir daha təsdiq edir.

Qeyd etmək lazımdır ki, məhkumların hüquqları ilə bağlı bir çox tədqiqatlar aparılmışdır. Məhkum qadınların azadlıqdan məhrum etmə yerlərində saxlanılması üzrə hüquqi və təcrübi problemlər J.Greene, K.Pranis,[3] M.Levis, P.Carlen, A.Vorrall,[4] P.H.Kempen, M.Krabbe,[5] T.N.Volkova,[6] M.V.Minster,[7] T.F.Minyazev,[8] E.V.Struqova[9] kimi alimlərin elmi tədqiqatlarında diqqət mərkəzinə

---

[2] Ilaria Giacomi, Irina Protasova, Alessio Scandurra. The European Court of Human Rights and the protection of fundamental rights in prison. p. 3. https://www.antigone.it/upload2/uploads/docs/ECHR%20and%20rights%20in%20prison.pdf

[3] Hard Hit: The Growth in the Imprisonment of Women, 1977-2004 / Judith Greene, Kevin Pranis, Natasha A. Frost - New York, 2006. - 144 p.

[4] Pat, Carlen and Anne, Worrall. Analyzing of Women Imprisonment. - Devon, UK: Willian Publishing, - 2004. - 242 p.

[5] P. Hein van Kempen, M. Krabbe. Women in prison: a transnational perspective. – Intersentia: Cambridge, - 2017. - 918 p.

[6] Волкова Т.Н. Криминологические и уголовно-исполнительные проблемы женской преступности в современной России: / автореф. дис. … д-ра юрид. наук / - М., - 1999. - 51 с.

[7] Минстер, М. В. Правовое положение женщин, осужденных к лишению свободы: / дис. … канд. юрид. наук. 12.00.08 / - Иркутск, - 2009. - 222 с.

[8] Минязев, Т. Ф. Правовое положение осужденных. - М.: Права человека, 2000. - 212 с.

[9] Стругова, Е. В. Дифференциация и индивидуализация исполнения наказания в виде лишения свободы в отношении осужденных женщин: / автореф. дис. … канд. юрид. Наук / - Рязань, 1995. - 21 с.

çəkilmişdir. A.Taşdemir,[10] O.Taşkın,[11] S.Saruç[12] və başqa türk tədqiqatçıları məhkum qadınların hüquqi vəziyyəti ilə bağlı məsələləri müxtəlif aspektlərdən təhlil etmişlər.

Bir çox tədqiqatçılar məhkum qadınların spesifik ehtiyaclarını nəzərə alaraq, problemlərin daha çox sosioloji istiqamətdə şərhinə üstünlük vermişlər. Bununla bağlı, Kamal Tahirin "Karılar Qoğuşu" kitabını[13] qeyd etmək istərdik ki, kitabda verilmiş 1940-cı illərin birinci yarısında Malatya həbsxanasında qadın məhbusları arasında iyerarxik quruluş diqqət mərkəzinə çəkilmişdir.

Qadınların etnik və dini baxımdan ayrı-seçkiliyə məruz qalmasını qeyd edən əksər tədqiqatçılar (məsələn, G.Barış[14] və başqaları) isə diqqət çəkən məqam kimi qadınların törətdiyi cinayətlərdən, yəni məhkum olunduğu sanksiyalardan asılı olaraq fərqli münasibətə məruz qalmasını vurğulamış və problemin həlli yollarını dövlətlərin pozitiv və neqativ öhdəlikləri ilə əlaqələndirmişlər.

Azərbaycan hüquq ədəbiyyatında qadın məhkumların hüquqlarına dair tədqiqatlara rast gəlinmir. Mövcud əsərlər məhkumların problemlərinə ümumilikdə yanaşmış, sırf qadınlarla bağlı istiqamətlərin təhlilini aparmamışdır. Lakin insan hüquqlarına dair əsərlərdən Ə.İ.Əliyevin dərslik və dərs vəsaitlərinə,[15] T.İ.Hüseynovun doktorluq dissertasiyasına,[16] qadınların hüquqlarına

---

[10] Küçüktaşdemir, Ö. Ceza hukukunda örselenmiş kadın sendromu // Başkent Üniversitesi Hukuk Fakültesi Dergisi, No. 1, - 2015. - s. 547-585.

[11] Taşkın, O. E.Kötü muameleye maruz kalmış kadın reaksiyonu: Meşru savunma mı, mazeret Nedeni mi // Ceza Hukuku Dergisi, 7/20, - 2012. - s. 43-58.

[12] Saruç, S.Kadın hükümlüler: Cezaevi yaşantısı ve tahliye sonrası gereksinimler / Doktora Tezi / - Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara, - 2013. - 345 s.

[13] Kemal, Tahir. Karılar Koğuşu. - İstanbul: İthaki yayınları, - 2019. - 368 s.

[14] Gaye, Barısh. Female offenders' attitudes towards gender and violence and their violence experiences: Sincan Women's prison. - Ankara, - 2015. - 196 p.

[15] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. - Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. - Bakı: Nurlar, - 2019. - 352 s.; Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Dərslik. - Bakı, - 2009. - 490 s.

[16] Гусейнов, Т.И. Осуществление международно-правовых норм в области гражданских и политических прав и свобод человека в Азербайджанской

həsr edilmiş əsərlərdən “Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər” kitabına[17], K.N.Səlimov və M.S.Qafarovun həbs yerlərində məhkumların hüququ statusu ilə bağlı tədqiqatına[18] müraciət olunmuşdur.

Hüquq ədəbiyyatında cinayətlər və azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin hüquqları və məsuliyyəti məsələsinə dəfələrlə toxunulmuş, G.P.Baydakov, M.M.Qalkin, M.P.Juravlyov, V.E.Kvaşis, Y.F.Kvaşa, P.Y.Koneger, A.İ.Martsev, A.S. Mixlin, A.E.Nataşev, N.A.Struçkov və bəzi başqa müəlliflərin tədqiqatları bu mövzuya həsr olunmuşdur. Lakin həmin alimlərin əsərləri əsasən bütün məhkumlarla bağlı məsələlərə toxunur və müstəqil olaraq azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyəti problemini ayrıca kateqoriya kimi araşdırmır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini məhkum qadınların azadlıqdan məhrum etmə yerlərində hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq standartların milli hüquqda tətbiqi ilə əlaqədar problemlər, o cümlədən məhkum qadınların hüquqlarının təminatının təşkilati problemləri təşkil edir.

Tədqiqatın predmetini məhkum qadınların azadlıqdan məhrum etmə yerlərində hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı beynəlxalq və dövlətdaxili hüquqi tənzimləmələr və mövcud çətinliklər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının mövzusu qadın məhkumların hüquqlarının müdafiəsi ilə bağlı olduğu üçün araşdırma və təhlillərin aparılması zamanı bütün problemlərə insan hüquqları kontekstindən baxılması tədqiqatın başlıca məqsədi kimi müəyyən edilmişdir. Son məqsəd isə məhkum qadınların mülki, siyasi, sosial, iqtisadi və mədəni hüquq və azadlıqlarının müdafiəsi

---

Республике / дис. … канд. юрид. наук / - Казань, 2000. - 201 с.

[17] Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər. Dərs vəsaiti / Hicran Hüseynova, Əmir Əliyev, Pərvanə Bayramova, Əliməmməd Nuriyev, Elgün Səfərov, Aydın Səfixanlı, Qulamhüseyn Əlibəyli - Bakı, - 2018. - 187 s.

[18] K.N.Səlimov, M.S.Qafarov Azərbaycan Respublikasında həbs yerlərində saxlanılan şəxslərə və məhkumlara tibbi xidmət. Beynəlxalq standartlar və Milli qanunvericilik. - Bakı, - 2008. - 712 s.

və təminatı təcrübəsini araşdırmaq, problemləri təsnifləşdirmək və onların aradan qaldırılması üçün təklif və tövsiyələr təqdim etməkdən ibarətdir.

Tədqiqatın qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün tədqiqatın aparılma ardıcıllığı aşağıdakı kimi müəyyənləşdirilmişdir: azadlıqdan məhrumetmə yerlərində qadınların hüquqi vəziyyətinə dair beynəlxalq-hüquqi standartların insan hüquqlarının müdafiəsi istiqamətində xronoloji ardıcıllıqla şərhi; qadın məhkumların hüquqlarının müdafiəsi üzrə dövlətlərin neqativ və pozitiv öhdəliklərinin İHAM təcrübəsi əsasında təhlili; azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinin tənzimlənməsi üzrə xarici dövlətlərin təcrübəsinin araşdırılması; azadlıqdan məhrum etmə yerlərində qadın məhkumların ayrı-ayrı hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq normaların milli qanunvericiliyə implementasiyası üzrə mövcud problemlərin aşkara çıxarılması və həlli yollarının axtarılıb-tapılması; iş üzrə əldə olunmuş nəticələrin ümumiləşdirilməsi.

Tədqiqat işində aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- qadın məhkumların hüquqi müdafiəsinə dair beynəlxalq-hüquqi tənzimetmənin formalaşması və inkişafını şərtləndirən amillərin tədqiqi;
- azadlıqdan məhrum etmə yerlərində qadınların hüquqi vəziyyətinə dair beynəlxalq-hüquqi standartların insan hüquqlarının müdafiəsinin prinsipləri əsasında təhlil edilməsi;
- qadın məhkumların hüquqlarının müdafiəsi üzrə dövlətlərin neqativ və pozitiv öhdəliklərinin İHAM təcrübəsi əsasında şərh edilməsi;
- azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinin tənzimlənməsi üzrə xarici dövlətlərin təcrübəsinin müqayisəli hüquqi təhlilinin aparılması və qabaqcıl təcrübələrin müəyyən olunması;
- azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi statusunun məzmununun müəyyən edilməsi;
- azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquq və vəzifələrinin təsnifatının aparılması;

- məhkum qadınların sosial-demoqrafik xüsusiyyətlərinin onların hüquqi vəziyyətinə təsirinin tədqiqi;

- Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinə dair beynəlxalq normaların tətbiqi təcrübəsinin təhlili;

- azadlıqdan məhrum etmə yerlərində qadın məhkumların hüquqlarının müdafiəsi üzrə təşkilati problemlərin tədqiqi və onların həlli yollarının müəyyən edilməsi;

- Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə yerlərində məhkum qadınların mülki və siyasi hüquq və azadlıqlarının təminatı üzrə hüquqi tənzimləmələrin araşdırılması;

- Azərbaycan Respublikasında azadlıqdan məhrum etmə yerlərində məhkum qadınların sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının qorunması üzrə mövcud hüquqi və təcrübi problemlərin aşkara çıxarılması və onların həlli üzrə təkliflərin təqdim olunması;

- azadlıqdan məhrum etmə yerlərində məhkum qadınların hüquq və azadlıqların beynəlxalq və milli normalara uyğun təminatı məqsədilə qabaqcıl təcrübələrin təhlili və onların Azərbaycan Respublikasında tətbiqi üzrə tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat zamanı ümumi və xüsusi metodlardan kompleks formada istifadə olunmuşdur. Belə ki, beynəlxalq standartların təhlili, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və qabaqcıl xarici təcrübənin müəyyən edilməsi zamanı müqayisəli-hüquqi təhlil metoduna müraciət olunmuşdur.

Məhkum qadınların hüquqi vəziyyəti ilə bağlı məsələlər yalnız hüquqi aspektdən araşdırılarsa, əldə olunan nəticə o qədər də uğurlu olmaya bilər. Problemlər kompleks yanaşma, xüsusilə də antropoloji və sosioloji metodların əlaqəli formada tətbiqi yolu ilə şərh olunmalıdır. Çünki cəzaçəkmə müəssisələrində qadınların üzləşdiyi əksər hüquqların pozulması və ya məhdudlaşdırılması halları sosial problemlərdən irəli gəlir.

Məhkum qadınların hüquqi statusunun elementləri sistem-struktur təhlil metodu vasitəsilə tədqiq olunmuşdur.

Bir sıra ümumiləşdirmələrin aparılması statistik üsul, analiz və sintez, induksiya və deduksiya vasitəsilə icra olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliyini özündə ifadə edən əsas **yeni elmi müddəalar** aşağıdakılardır:

1. Azadlıqdan məhrum etmə mürəkkəb, ziddiyyətli və həssas proses olaraq, məhkum qadının fiziki, psixi və sosial sağlamlığına təsir edən bir çox parametrləri özündə cəmləşdirir. Onun həyata keçirilməsinə bir tərəfdən dövlətin cinayətkarlığa qarşı mübarizə siyasəti, digər tərəfdən əsas insan hüquq və azadlıqlarına hörmətlə bağlı prioritet öhdəliklər təsir edir. Bu baxımdan, azadlıqdan məhrum etmə yerlərində məhkum qadınların hüquq və azadlıqlarının qorunması üzrə problemlər iki qrupda təhlil olunmalıdır: qanuvericilikdə olan ziddiyyət və çatışmazlıqlar; təcrübi problemlər.

2. Müasir insan hüquqları nəzəriyyəsində yalnız məhkumlara aid olan fərqli insan hüquqları qrupunun mövcudluğunu iddia etmək ağlabatan deyil. Beynəlxalq və milli səviyyələrdə cəza sisteminin hüquqi əsasları və cəza siyasəti də insan hüquqları hüququna əsaslanmalıdır. Bu mənada, həbs olunduqları zaman məhkum statusu alsalar da, məhbuslar yenə də insan və vətəndaş sayılmalıdırlar. Məhkumların hüquqi vəziyyəti "cinayətkar" və "vicdanlı insan" arasındakı fərqi adekvat şəkildə nəzərə almamalıdır, çünki həbsxanada hüquqların tanınması və təşviqi qanunun aliliyinə və demokratiyaya əsaslanır. Beləliklə, insan hüquqları ayrı-seçkilik etmədən bütün fərdləri, o cümlədən həbs nəticəsində azadlığı məhdudlaşdırılan şəxsləri də əhatə edir. Buna görə də qadın məhkumlar həbsxanada olduqları üçün öz hüquqlarını itirmirlər. Sadəcə onların hüquqi vəziyyətinin səciyyəvi əlamətlərindən irəli gələrək, konkret hüquq və azadlıqlar, vəzifələr dairəsi müəyyən olunmuşdur.

3. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi statusu ilə əlaqədar beynəlxalq normaların təhlilinin aparılması zəruridir. Bu, Azərbaycan qanunvericiliyinin həmin normalara uyğunluğunu və təcrübədə tətbiqi problemlərini üzə çıxarmağa imkan verir. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin hüquqi vəziyyəti ilə bağlı beynəlxalq sənədlərdə öz əksini tapmış normalar bu sahədə yeni qanunvericilik aktları hazırlanarkən nəzərə alınmalıdır. İstər BMT-nin qətnamələrində, istərsə də regional beynəlxalq təşkilatların sənədlərində beynəlxalq

miqyasda yüksək mənəvi-siyasi səviyyəni saxlamaq üçün beynəlxalq hüquq normalarının icrasına nəzarət nəzərdə tutulur. Məhkum qadınların hüquq və azadlıqlarının müdafiəsi üzrə beynəlxalq standartlar humanizm, azadlıq, bərabərlik, bərabərhüquqluluq və ayrı-seçkiliyin qadağan edilməsi və şəxsiyyətin ləyaqəti prinsiplərinə əsaslanmalıdır.

4. Qadın məhkumların qanunvericilikdə təsbit olunmuş hüquq və azadlıqlarını üç qrupda təsnifləşdirmək olar: konstitusion qaydada bəyan olunmuş hər kəsə şamil edilən hüquq və azadlıqlar; məhkumluq vəziyyətindən irəli gələn hüquq və azadlıqlar; sırf qadın məhkumlar üçün nəzərdə tutulmuş hüquq və azadlıqlar. Birinci qrupa daxil olan sağlamlıq hüququ məhkum qadınların daha çox pozulan hüquqlarından biri hesab olunur. Bu hüququn qorunması məqsədilə ağır, ölümcül xəstəlikdən əziyyət çəkən məhkum qadınların cəzaçəkmə müəssisəsindən kənarda tibbi müalicəsinin dövlət hesabına həyata keçirilməsi ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsi məqsədəuyğundur. Milli tənzimləmədə ikinci qrup hüquqlardan sayılan görüş hüququ məhkum qadınların yerdəyişməsi zamanı əlavə nəqliyyat xərcləri səbəbindən məhdudlaşdırılır. Belə hallarda məhkum qadınların görüş hüququnun təminatı üçün müvafiq normalara nəqliyyat xərclərinin dövlət hesabına həyata keçirilməsi ilə bağlı dəyişiklik edilməsi daha düzgündür. Hamilə qadınların doğuş və doğuşdan sonrakı müddət ərzində xüsusi tibbi yardım almaq hüququ, qadınların uşaqla birgə yaşamaq kimi hüquqlar isə üçüncü qrup hüquqlara daxildir.

5. Həbsdə olan qadınlar adətən çəzaçəkmə müəssisələrində fiziki, cinsi, iqtisadi və inzibati problemlər yaşayırlar. Qadınlar cinsinə görə həbsxanalarda həssas qrup təşkil edirlər. Onlar kişi həmkarları ilə müqayisədə unikal problemlərlə üzləşirlər. Bu problemlərə daxildir: yüksək səviyyədə psixi sağlamlıq problemi; məişət zorakılığı, cinsi istismar və həbsxanada qadınlara qarşı zorakılıq; adekvat şəkildə qarşılana bilməyən spesifik səhiyyə ehtiyacları (doğuşdan əvvəlki qayğı, doğuşdan sonrakı qayğı) və s. Qadınların həbsdə olma nisbətlərinin yüksəlməsi narahatedici sosial tendensiyaları əks etdirir: kasıb və həssas insanları istismar edən cinayət mühakimə sistemi; narkotik maddələrdən sui-istifadə ilə

bağlı müalicədən daha çox hüquq-mühafizə və cəzaya diqqət yetirilməsi; ciddi ruhi xəstəliyi olan şəxslərə qarşı atılan münasibət; mizoginiya. Bütün bunlar məhkum qadınların hüquq və azadlıqlarının qorunması zamanı gender əsaslı və kompleks yanaşmanın rəhbər tutulmasının zəruriliyini təsdiq edir.

6. Genderə həssas yanaşan həbsxana idarəçiliyinin komponentlərinə aşağıdakılar daxil edilməlidir: qadın məhbusların sayının az olması səbəbindən onların qarşılaşdıqları ayrı-seçkiliyə qarşı tarazlığın aradan qaldırılması üçün müsbət tədbirlərin görülməsi; genderə həssas idarəetmə tərzinin qəbul edilməsi; müxtəlif mədəniyyətlərə malik olan məhbuslar da daxil olmaqla qadın məhbusların müxtəlif ehtiyaclarının tanınması və bu ehtiyaclara cavab verən proqram və xidmətlərin təmin edilməsi.

7. Məhkum qadınların məlumat və ifadə azadlığı ilə bağlı normalardan xəbərsiz olması qeyd olunan hüquqların pozulmasına gətirib çıxarır. Yeni cəmiyyətin formalaşmasını nəzərə alaraq, məhkum qadınların yalnız kağız daşıyıcılarda əks olunan yazı vasitələri, qəzet, jurnal və kitablardan istifadəsinə icazənin verilməsi o qədər də uğurlu tənzimləmə deyil. Onların öz hüquq və azadlıqlarına dair hüquqi dəyişikliklərlə operativ tanış olması üçün dövlət orqanlarının veb-saytlarına daxil olması ilə bağlı hüquqi tənzimləmələr də nəzərdə tutulmalıdır.

8. Məhkum qadınların saxlanması şəraiti onların törətdiyi cinayət əməlinin ayrı-ayrı halları nəzərə alınaraq formalaşdırılmalıdır. Yalnız ilk dəfə cinayət törətmiş məhkumların əvvəllər məhkum olunmuş şəxslərdən fərqləndirilməsi yetərli tənzimləmə deyil. Həmçinin cinayətdə təqsirlilik səviyyəsi və işin ayrı-ayrı halları da normativ qaydada nəzərdə tutulmalıdır. Məsələn, məişət zorakılığı nəticəsində cinayət törətmiş qadınların birlikdə saxlanılması daha düzgündür.

9. Hazırki dövrlə bağlı bütün məsələlərin həlli üçün təkcə islah müəssisələrinin əməkdaşlarının deyil, həm də dövlət sosial müəssisələrinin, ictimai təşkilatların birgə əlaqələndirilmiş tədbirlər məqsədilə səylərini birləşdirmək lazımdır. Məhkum qadınları azadlığa hazırlamaq üçün birgə səylər aşağıdakı istiqamətləri əhatə etməlidir: qadınlarla fərdi tərbiyə işinin, sosial, psixoloji və tibbi

yardımın səmərəliliyinin artırılması; təhsil və təlim. Qadın islah müəssisələrinin müdiriyyəti ilə regional müəssisələr; əhalinin azadlığa çıxdıqdan sonra işlə təmin olunmasına zəmanət verən məşğulluq mərkəzləri; azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş qadınlar üçün məişət avadanlıqlarına zəmanət verilməklə reabilitasiya mərkəzləri ilə qarşılıqlı əlaqəsi; islah müəssisələrinin müdiriyyəti ilə konkret müəssisə və təşkilatların rəhbərləri arasında qarşılıqlı əlaqə; dini konfessiyalarla, qəyyum təşkilatlarla, yerli hökumətlərlə əməkdaşlıq vacibdir.

10. Məhkum qadınların fərqli xüsusiyyətləri olmasına baxmayaraq, onların hamısını birləşdirən bir ümid vardır: azad olmaq üçün amnistiya və ya əfvetməni gözləmək. Məhz bu məqam qadın həbsxanalarında stimullaşdırıcı tədbirlərin davamlı aparılmasını şərtləndirir. Fiziki və texnoloji şəraitin qeyri-kafiliyini, habelə həbsxana işçilərinin peşəkar fəaliyyətində səmərəsizliyini nəzərə alaraq, intihar, qeyri-qanuni ticarət və narkotik vasitələrin qanunsuz dövriyyəsi kimi bir sıra digər müxtəlif problemlər yarana bilər. Bu baxımdan, penitensiar sistemlərdə artıq mövcud olan alt mədəniyyətləri aradan qaldırmaq üçün bir çox ölkələrdə kadrların hazırlanması kifayət etmir. Həbsxanalardakı risk və nizam-intizam faktorlarının məhbuslarla əməkdaşlar arasında güc münasibətlərində nəticələndiyi bir reallıqdır. Hər hansı bir sosial təşkilata xas olan bürokratik və təzyiq elementlərinə nəzarətin çətinliyinə baxmayaraq, penitensiar sistemlərin daxili və xarici müdafiə mexanizmləri ilk növbədə, onların inkişaf etdirilməsi məqsədi daşıyır. Bununla belə, belə bir iş mühitinin idarə edilməsi tamamilə peşəkar həbsxana işçilərinin məhkəmə və ictimaiyyət tərəfindən effektiv şəkildə yoxlanılmasını tələb edir. Yoxlamaların daha effektiv aparılması üçün monitorinq qruplarının təşkili və mütəmadi monitorinqlərin aparılması zəruridir.

11. Məhkum qadınların azadlığa hazırlanması işinin təşkili bir-biri ilə əlaqəli bir sıra mərhələlərdən ibarət olmalıdır ki, onların xüsusiyyəti sosial əhəmiyyətli, fəal həyat mövqeyinin formalaşdırılmasına yönəlmiş psixoloji və tibbi təsirin islah, sosial tədbirlər kompleksinin məcmusundan ibarət olmalıdır. Bu yanaşma qadın cinayətlərinin qarşısının alınmasını daha səmərəli edəcək,

təkrar cinayətlərin səviyyəsini əhəmiyyətli dərəcədə azaldacaqdır. Azadlığa hazırlıq dövründə aşağıdakılar zəruridir: məhkum qadınları iqtisadi, siyasi və hüquqi islahatların həyata keçirilməsinin gedişi ilə tanış etmək; hüquqi biliklərin əsaslarını öyrənmək; ümumi təhsil və peşə səviyyəsinin yüksəldilməsi; ictimai faydalı əlaqələrin bərpası və möhkəmləndirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Respublikamızda məhkum qadınların hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş tədqiqat əsəri yoxdur. Mövcud araşdırmalar isə problemləri yalnız cinayət və cəza icra hüququ aspektindən təhlil etmişdir. Dissertasiyada ilk dəfə olaraq məhkum qadınların hüquq və azadlıqlarının qorunması və müdafiəsi üzrə problemlər qruplaşdırılmış və onların həlli yolları həmin qruplar üzrə müəyyənləşdirilmişdir. Bundan əlavə, məhkum qadınların ifadə azadlığı, internet əlyetərliyi və informasiya hüquqları ilə bağlı təkliflərin təqdim edilməsi, monitorinq qruplarının nəzarət mexanizminin formalaşdırılması ilə əlaqədar tövsiyələrin işlənib hazırlanması da dissertasiya işinin yeniliklərindəndir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti onda ifadə olunur ki, burada məhkum qadınların azadlıqdan məhrum etmə yerlərində hüquqlarının dairəsi müəyyənləşdirilmişdir.

Tədqiqatın təcrübi əhəmiyyəti ondan ibarətdir ki, cəzaların icrası qanunvericiliyinə məhkum qadınların hüquq və azadlıqları ilə bağlı təklif olunan əlavə və dəyişikliklər təcrübədə tətbiq olunarsa, öz töhfəsini verə bilər.

Eyni zamanda, tədqiqatın nəticələrindən Qadın və uşaq hüquqları, Ayrı-ayrı insan hüquqları, Ayrı-ayrı qrupların hüquqları və s. fənlərin tədrisində də geniş istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat nəticəsində əldə edilmiş yeniliklər və irəli sürülmüş təkliflər dissertasiya mövzusu üzrə yerli və xarici elmi jurnallarda müxtəlif dillərdə (azərbaycan, ingilis və rus) dərc etdirilmiş elmi məqalələrdə, eləcə də beynəlxalq və yerli elmi-praktiki konfransların materiallarında öz əksini tapmışdır.

**Tədqiqatın yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında geniş müzakirə edilmiş və əsas müdafiə üçün tövsiyə edilmişdir.

**Tədqiqatın strukturu.** Tədqiqat işi struktur baxımından giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiəyə təqdim edilən yeni elmi müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

**Dissertasiyanın birinci fəsli "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətini tənzimləyən beynəlxalq standartların tətbiqi istiqamətləri"** adlanır və iki paraqrafdan ibarətdir.

**"Azadlıqdan məhrumetmə yerlərində qadınların hüquqi vəziyyətinə dair beynəlxalq-hüquqi standartlar" adlanan birinci paraqraf** üç yarımparaqrafdan ibarətdir. Cari paraqrafda qeyd olunur ki, azadlıqdan məhrum etmə cəzasını çəkən məhkumların hüquqi vəziyyətini tənzimləyən, dünyanın əksər ölkələrində məqbul sayılan və bu müqavilələrin tərəfləri olan dövlətlər tərəfindən rəhbər tutulan insan hüquqlarına dair bir çox müdafiə mexanizmləri beynəlxalq səviyyədə işlənib hazırlanmışdır və azadlıqdan məhrum edilmiş şəxslərə də şamil edilir. Bunlardan, İnsan hüquqları haqqında beynəlxalq Bill, Uşaq Hüquqları haqqında Konvensiya və İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı Konvensiya qeyd edilməlidir. Lakin bu sənədlərin heç biri məhkumların və ya məhkum qadınların hüquqi statusuna həsr olunmamışdır. Belə ki, konkret heç bir beynəlxalq konvensiya olmasa da, bu gün məhbusların hüquqlarını təmin etmək məqsədi daşıyan çoxlu sayda beynəlxalq və regional sənədlər mövcuddur. Bu alətləri iki kateqoriyaya bölmək olar: məcburi ("sərt" hüquq) standartlar və məcburi olmayan ("yumşaq" hüquq) standartlar.

Xüsusilə qadın hüquqlarının müdafiəsi üçün nəzərdə tutulmuş beynəlxalq müqavilələr insan hüquqlarının və qadın hüquqlarının

ayrı-seçkiliyə qarşı ölçüsünə müraciət edir. Məsələn, 1979-cu il BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyası (CEDAW) həbsxanada olan qadınlara heç bir istinad etmir, lakin qadınların tam inkişafına zəmanət vermək üçün müsbət tədbirlərin həyata keçirilməsi üçün əsas təşkil edir. BMT-nin məhkumların hüquqlarına dair yumşaq hüquq standartlarına gəlincə, bunlar əsasən, BMT-nin Məhkumlarla Rəftar üzrə Minimum Standart Qaydalarından, Məhkumlarla Rəftarın Əsas Prinsiplərindən, Hüquq mühafizə orqanları əməkdaşlarının davranış kodeksindən, Yetkinlik yaşına çatmayanlara qarşı ədalət mühakiməsinin həyata keçirilməsi üçün BMT-nin Minimum Standart Qaydalarından ("Pekin Qaydaları"), Azadlıqdan Məhrum Olunmuş Yetkinlik yaşına çatmayanların Müdafiəsi üzrə BMT Qaydalarından ("NLS" və ya Havana Qaydaları) və s.-dən ibarətdir.

Cari paraqraf çərçivəsində təhlilin aparılması məqsədilə məhkum qadınlar üçün müəyyən edilmiş müdafiə mexanizmlərinə, hüquqların müdafiəsi üzrə beynəlxalq sistemə, xüsusən hamilə qadınlara və cəmiyyətdən təcrid olunmuş şəkildə onlarla birlikdə saxlanan uşaqlı qadınlara dair xüsusi müddəalara nəzər salınmış, azadlıqdan məhrum etmə yerlərində qadınların hüquqi vəziyyətinə dair beynəlxalq hüquqi standartlar insan hüquqlarının müdafiəsinin prinsipləri əsasında təhlil olunmuşdur.

Qadın məhkumların hüquqlarının müdafiəsi üzrə dövlətlərin neqativ və pozitiv öhdəliklərini İHAM təcrübəsi əsasında araşdıran iddiaçı Məhkəmənin 1950-ci il Avropa Konvensiyasının 2, 3, 8 və 12-ci maddələrinə istinadən qadın məhkumlarla bağlı işlərinə nəzər yetirmişdir. Burada bildirilir ki, İHAM-ın pozitiv öhdəliklərlə bağlı presedent hüququ mahiyyətcə neqativ dövlət öhdəliklərinin dominant paradiqmasının təsiri altında hələ də çox məhduddur.

**"Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinin tənzimlənməsi üzrə xarici dövlətlərin təcrübəsi" adlanan ikinci paraqraf** azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınlarla bağlı müxtəlif xarici dövlətlərin hüquqi tənzimləmələri və məhkəmə təcrübəsinə həsr

olunmuşdur. Adətən qadınlar ölkədəki bütün məhbusların 2-9%-ni təşkil edir, lakin bəzi hallarda bu rəqəm daha yüksək ola bilər.[19]

Qadın məhkumların hüquqi vəziyyəti və onların hüquqlarının müdafiəsi ilə bağlı xarici dövlətlərin təcrübəsini analiz və müqayisəli təhlil metodu əsasında tədqiq edən iddiaçı bildirir ki, XX əsrin əvvəllərində qadın məhkumlarla bağlı ən vacib problem kişi əsaslı həbsxana sisteminin olmasından irəli gəlirdi. Bu sistem qadın məhbusların həm kişi, həm də qadın məhbusların reabilitasiyası üçün nəzərdə tutulmuş tədbirlərdə iştirakına imkan vermirdi.[20] Daha sonralar bu sahədə inkişaf müşahidə edilsə də, hətta hal-hazırda da İngilis və ya Amerika kimi müasir həbsxana sistemlərində qadın məhbuslar qadınlıqlarına və həssaslıqlarına görə məcburiyyət, zorakılıq və təcavüzə məruz qalırlar. Ona görə də müasir dövlətlərin ən başlıca vəzifəsi qadın məhkumların belə zorakılıqdan qorunması və onların hüquq və azadlıqlarının müdafiəsi olmalıdır.

Xarici dövlətlərin ümumilikdə təcrübəsinin təhlili bu qənaətə gəlməyə imkan verir ki, qadın məhkumların azadlıqdan məhrum etmə yerlərində hüquqi müdafiəsinin təkmilləşdirilməsi yalnız hüquqi tənzimləmələrin təhlili ilə mümkün ola bilməz. Çünki onlar qapalı məkanda saxlandıqları üçün həmin mühitdə baş verənlərin araşdırılması və öyrənilməsi ilə uğurlu nəticə əldə etmək mümkündür. Burada xüsusilə qadın məhkumlar arasında sorğu və eksperimentlərin keçirilməsi qeyd olunmalıdır. Belə sorğu və eksperimentlərlə bağlı uğurlu təcrübələr vardır.

Dissertasiyanın **“Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi statusu” adlı ikinci fəsli** iki paraqrafdan ibarətdir.

**“Məhkum qadınların hüquqi statusunun məzmunu” adlı birinci paraqraf** məhkum qadınların hüquqi statusunun məzmununa daxil olan hüquqlar, vəzifələr, məsuliyyət və qadağaların tədqiqini əhatə edir. Burada qadın məhkumların qanunvericilikdə təsbit

---

[19] World Female Imprisonment List. International Centre for Prison Studies. www.prisonstudies.org

[20] Pat, Carlen and Anne, Worrall. Analyzing of Women Imprisonment. - Devon, UK: Willian Publishing, - 2004. - p. 9.

olunmuş hüquq və azadlıqları üç qrupda təsnifləşdirilir: konstitusion qaydada bəyan olunmuş hər kəsə şamil edilən hüquq və azadlıqlar; məhkumluq vəziyyətindən irəli gələn hüquq və azadlıqlar; sırf qadın məhkumlar üçün nəzərdə tutulmuş hüquq və azadlıqlar.

Birinci qrup hüquq və azadlıqlar həm cəzaların icrası qanunvericiliyində nəzərdə tutulan, həm də bilavasitə Konstitusiyanın müvafiq normalarına istinadən təsnifləşdirilə bilər. Məsələn, bərabərlik, yaşamaq kimi hüquqlar birbaşa Konstitusiyada hər kəs üçün bəyan olunmuşdur. Bəzi hüquqlar isə konstitusion qaydada nəzərdə tutulmuş hüquqların məhkumlara da şamil edilməsinə əsasən, konkret sahəvi qanunlarda əks olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 10-cu maddəsində təsbit olunmuş bir çox hüquqlar konstitusion normalara əsaslanır.

İkinci qrup hüquq və azadlıqlar isə sırf məhkumlar üçün onların hüquqi vəziyyətindən asılı olaraq müəyyən edilmişdir və bu, qadın məhkumlara da şamil edilir. Bu hüquqlar qrupu xüsusi xarakter daşıyır, çünki onlar müstəsna olaraq azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə xasdır və yalnız onların hüquqi statusunun ayrılmaz elementidir. Məsələn, bədən tərbiyəsi və idmanla məşğul olmaq, cəzanın icrası və çəkilməsi ilə əlaqədar öz barəsində qəbul edilmiş qərarlara dair öz rəyini bildirmək və ya onlardan şikayət etmək hüququ və s.

Üçüncü qrup hüquq və azadlıqlar məhkum qadınların sırf qadın olmasından irəli gələrək müəyyən olunmuşdur. Məsələn, məhkum qadınlar asudə vaxtlarında onların 3 yaşına çatmayan uşaqlarının yerləşdirilməsi üçün təşkil olunmuş uşaq evlərində uşaqları ilə məhdudiyyətsiz görüşmək hüququna malikdirlər. Hətta qanunvericilik belə qadınların uşaqla birgə yaşamasına icazə verir (Cəzaların İcrası Məcəlləsinin 92-ci maddəsi).

Azadlıqdan məhrum edilmiş şəxslərin ictimai zəruri davranışı ilə bağlı sosial funksiyalara əlavə olaraq, bu kateqoriyadan olan şəxslərin vəzifələri mühüm hüquqi əhəmiyyətə malikdir.

Məhkum qadınların hüquqi statusu onların məsuliyyət məsələsini də əhatə edir. Bu kontekstdən struktur komponentlər kimi həvəsləndirmə tədbirlərinin və intizam tənbehlərinin tətbiqi qeyd

olunmalıdır. Həvəsləndirici tədbirlər və intizam tənbehləri sistemi məhkumun davranışında baş verən dəyişikliklərə vaxtında reaksiya verməyə imkan verir, onu cəzanın çəkilməsi qaydasına və davranış qaydalarına əməl etməyə istiqamətləndirir.

**"Məhkum qadınların sosial-demoqrafik xüsusiyyətlərinin onların hüquqi vəziyyətinə təsiri" adlanan ikinci paraqrafda** bildirilir ki, məhkum qadınlar çox vaxt kompleks həssas xüsusiyyətlərlə xarakterizə olunurlar: onların cinayətdəki rolu çox vaxt həbs müddətinin qısalmasına səbəb olur; onların həyatları əhəmiyyətli dərəcədə övladları tərəfindən müəyyən edilir və s. Deməli, cinayət mühakimə sistemində qadınların fərqli qarşılanmamış ehtiyacları vardır. Bununla bağlı Baronessa Korstonun (2007) cinayət mühakimə sistemində xüsusi zəifliyi olan qadınlara dair Daxili İşlər Nazirliyinin sifarişi ilə hazırladığı hesabatına istinad edən iddiaçı Korstonun hesabatında öz əksini tapmış "fərqli, radikal fərqli, görünən şəkildə idarə olunan, strateji, mütənasib, bütöv, qadın mərkəzli, inteqrasiya olunmuş yanaşmaya" öz münasibətini bildirmişdir.

Ailə vəziyyəti məsələsinin tədqiqini qadınların məhkum olunmazdan əvvəl daimi yaşayış yeri ilə əlaqələndirən iddiaçı hesab edir ki, məhkum qadınların daimi yaşayış yerinin olması faktı qadınların cəzasını çəkdikdən sonra yenidən sosiallaşması üçün çox vacibdir. Çünki daimi yaşayış yerinin olması onların azadlığa hazırlaşdıqları dövrdə yaşayış yerinin olmaması və sosial faydalı əlaqələrin itirilməsi zamanı mütləq yaranan məişət problemlərini vaxtında həll etməyə imkan verir.

Tədqiqat zamanı əldə edilmiş məlumatlar məhkumların islah vasitələrindən daha səmərəli istifadə edilməsinə dair tövsiyələr hazırlamağa, qadın islah müəssisələrində azadlıqdan məhrum etmə cəzalarının icrasını və çəkilməsini tənzimləyən qanunvericiliyin dəyişdirilməsi ilə bağlı təkliflər irəli sürməyə imkan verir.

**Dissertasiyanın üçüncü fəsli "Azadlıqdan məhrum etmə yerlərində qadın məhkumların ayrı-ayrı hüquqlarının müdafiəsi üzrə mövcud problemlər: beynəlxalq normaların milli qanunvericiliyə implementasiyası"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqraf "Azərbaycan Respublikasında azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinə dair beynəlxalq normaların tətbiqi təcrübəsi"** adlanır və azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinə dair beynəlxalq hüquq normalarının milli praktikada tətbiqi məsələlərini əhatə edir. Bu paraqrafda qeyd olunur ki, Azərbaycan Respublikasında azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinə dair beynəlxalq normaların tətbiqi üzrə mövcud problemlərin aradan qaldırılması üçün aşağıdakı səviyyələrdə əlavə tədbirlər kompleksinin icası zəruridir: insan hüquqlarının qanunvericilik və digər normativ təminatı, məhkumlarla rəftarın beynəlxalq standartlarının təcrübəyə tətbiqi; insan hüquqlarının təmin edilməsi və məhkumlarla rəftarın beynəlxalq standartlarının təcrübəyə tətbiqi sahəsində siyasi qərarların qəbul edilməsi; konkret islah müəssisələrinin təcrübəsində insan hüquqlarının və məhkumlarla rəftarın beynəlxalq standartlarının təmin edilməsi; azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin hüquq və azadlıqlarına əməl olunmasına nəzarət sisteminin səmərəliliyinin artırılması.

Azərbaycanda qadın islah müəssisələrinin əsas problemlərindən biri kimi anaların hüquqları məsələsini ön plana çəkən iddiaçı hesab edir ki, Cəzaların İcrası Məcəlləsinin 92-ci maddəsi cəzaçəkmə müəssisələrində məhkum qadınların üç yaşına çatmayan uşaqlarının yerləşdirilməsi üçün uşaq evlərinin təşkilini tənzimləyir ki, bu norma beynəlxalq hüquqi əsaslara söykənir. Lakin sözügedən normanın praktikada həyata keçirilməsi bu şəraitin yaradılması üçün vəsait qoyuluşları tələb edir. Araşdırmalar belə birgə yaşayışın məqsədəuyğunluğunu göstərir. Birincisi, uşağa gün ərzində daha çox diqqət yetirilə bilər. İkincisi, daim uşağın yanında olan ana ona daha çox alışır, ona qulluq etməyi öyrənir, azadlığa çıxandan sonra ona faydalı olacaq bacarıqlara yiyələnir və nəhayət, sadəcə olaraq körpəyə bağlanır.

Cari paraqrafda bildirilir ki, uşaqlı qadınlara azadlıqdan məhrum etmə növündə cəzanın icrası prosesinin səmərəliliyinə nail olmaq üçün yüksək keyfiyyətli gender yönümlü yardımın təşkilinə

xüsusi diqqət yetirilməlidir. O cümlədən islah müəssisələrində və həbsxanalarda olan ana və uşaq otaqlarının sayını artırmaq, uşaqlı anaların birgə yaşayışına keçid, uşaqların yaşını nəzərə almaqla anaların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə maraqlı dövlət və qeyri-dövlət təşkilatları ilə məsləhətləşmələr aparmaq, bu kateqoriyadan olan məhkumların cəzaçəkmə şəraitinin yaxşılaşdırılması proqramlarını işləyib hazırlamaq və məhkum qadınlar üçün islah müəssisələrinə işləməyə göndərilən əməkdaşların müvafiq proqramlara uyğun olaraq yenidən hazırlanmasını təmin etmək zəruridir.

**İkinci paraqraf "Azadlıqdan məhrumetmə yerlərində qadın məhkumların hüquqlarının müdafiəsi üzrə təşkilati problemlər"** adlanır və burada qadın məhkumların hüquqlarının müdafiəsi üzrə təşkilati problemlər sadalanır və onların qarşısının alınması məqsədilə təklif və tövsiyələr təqdim edilir. Həbs şəraiti və məhbuslarla rəftar məhbusların gündəlik həyatının müxtəlif aspektləri ilə bağlı milli və beynəlxalq səviyyədə verilmiş göstərişlərə uyğun olmalıdır. Məhbuslar azadlıqdan məhrum edilirlər, lakin onlara layiqli həyat şəraiti yaradılmalıdır. Bu məqsədlə təşkilati problemlər iddiaçı tərəfindən iki istiqamətdə şərh olunmuşdur: qadın məhkumlarla rəftar və cəzaçəkmə müsəssisəsinin şəraiti.

Qanunvericiliyin təhlili əsasında belə qənaətə gəlinir ki, qanunvericilikdə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin mövcud təsnifatı kifayət qədər mükəmməl deyil. Deməli, azadlıqdan məhrum etmə növündə cəzaların təyin edilməsi və icrası sahəsində dövlət siyasətinin bütün istiqamətlərinin həyata keçirilməsini təmin etmək üçün azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş kateqoriyaların daha dəqiq bölgüsünün aparılması zəruridir. Bununla əlaqədar olaraq, Cəzaların İcrası Məcəlləsinin 112-ci maddəsinin 2-ci hissəsinə aşağıdakı məzmunda dəyişikliklərin daxil edilməsi məqsədəuyğun hesab edilmişdir: "Ehtiyatsızlıqdan törədilmiş cinayətlərə, qəsdən törədilmiş, böyük ictimai təhlükə törətməyən cinayətlərə və az ağır cinayətlərə görə məhkum olunmuş şəxslər ağır cinayətlərə görə ilk dəfə məhkum edilmiş qadınlardan ayrı saxlanılmalıdır". Məhkum qadınların belə

təsnifatı cəzanın təyin edilməsinin və icrasının diferensiallaşdırılması və fərdiləşdirilməsi prinsiplərinə daha uyğun olacaq, təqsirkarların şəxsiyyəti nəzərə alınmaqla islah işləri prosesini təşkil etməyə imkan verəcəkdir. Eyni zamanda, azadlıqdan məhrum etmə növündə cəzaların icrasının fərdiləşdirilməsi məhkum edilmiş gənc qadınların həm islah olunması, həm də postpenitensiar dövrdə yeni cinayətlər törətməsinin qarşısının alınması baxımından onların şəxsiyyətinə daha səmərəli təsir göstərəcəkdir.

**“Azərbaycan Respublikasında azadlıqdan məhrumetmə yerlərində məhkum qadınların əsas hüquq və azadlıqlarının həyata keçirilməsi və müdafiəsi təcrübəsi: mövcud problemlər və onların aradan qaldırılması yolları” adlı üçüncü paraqraf** iki yarımparaqrafdan ibarət olmaqla, azadlıqdan məhrumetmə yerlərində məhkum qadınların mülki, siyasi, sosial-iqtisadi və mədəni hüquqlarının müdafiəsi üzrə problemlərə həsr olunmuşdur.

Dissertasiyada qeyd olunur ki, psixi sağlamlığın möhkəmləndirilməsində müvəffəqiyyətli olmaq üçün sağlamlığın qorunması üzrə tədbirlər hazırlamaq, səhiyyə orqanlarının, penitensiar müəssisələrin səylərini birləşdirmək və keçmiş məhkumlar azad edildikdən sonra onlara səmərəli dəstək vermək zəruridir. Məhkum qadınlar cəmiyyətin üzvləri olaraq qalırlar, buna görə də cəzaçəkmə müəssisəsinin əməkdaşları müvafiq proqramların həyata keçirilməsi üçün onlarla və onların ailə üzvləri ilə işləməli və cəzanın çəkilməsinin ilkin mərhələsində psixoloji yardım göstərməlidirlər. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin normal həyata qayıtmağa həvəsləndirilməsi və bu işdə onlara köməklik göstərilməsi gələcəyi düşünən, insana qayğı göstərən müəssisələr kimi islah müəssisələrinin əsas vəzifəsi hesab edilməlidir.

Qadın məhkumların sosiallaşmasının birinci mərhələsinin əsas vəzifələri insanın cəmiyyətdən təcrid olunmasının yaratdığı neqativ halları aradan qaldırmaq və ya minimuma endirmək və onu azad, qanuna tabe olan həyata hazırlamaq, ikincisi isə sosial uyğunlaşmaya kömək etməkdir.

Cəzaçəkmə müəssisələrində saxlanılan qadınların hüquq və qanuni mənafelərinin davamlı şəkildə pozulması halları onların həyata keçirilməsi və müdafiəsi üçün hüquqi təminatların daim

işlənib hazırlanması, təkmilləşdirilməsi və gücləndirilməsi zərurətindən xəbər verir ki, bunun da əsas növlərindən biri cəzanı icra edən müəssisə və orqanlara nəzarət tədbirləridir. Müəllif hesab edir ki, məhkum qadınların hüquq və azadlıqlarının qorunması məqsədilə monitorinq işinin daha da təkmilləşdirilməsi vacibdir. Monitorinq qruplarının tərkibində həmçinin psixoloq, pedaqoqların da olması lazımdır və belə monitorinqlərin təşkili mütəmadi aparılmalıdır.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatın yekunu olaraq əldə edilmiş nəticələr 15 bənddə müəyyən edilmişdir:

1. Qapalı müəssisələrdə aşkar edilən davranış pozuntuları cinsə görə müəyyən edilir, yəni qadınlar ətraf mühitə və islah müəssisələrində vəziyyətə kişilərdən fərqli reaksiya verirlər. Azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş qadınların hüquqi təminatı, hüquq və qanuni mənafelərinin həyata keçirilməsi onların psixofizioloji xüsusiyyətləri nəzərə alınmaqla inkişaf etdirilməli və təmin edilməlidir. Məhkum qadınların hüquqi vəziyyətinə bu və ya digər şəkildə toxunan bütün normaların Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin ayrıca fəslində və islah müəssisələrinin daxili nizamnamələrində birləşdirilməsi zəruridir.

2. Cəzaçəkmə müəssisələrində saxlanılan qadınların sağlamlığının qorunması problemi aktualdır və təcili həllini tələb edir. Penitensiar qanunvericiliyin normalarının müqayisəli təhlili və araşdırmanın nəticələri göstərir ki, məhkum qadınların sağlamlığının qorunması hüququ bir sıra səbəblərə görə heç də həmişə həyata keçirilmir: zəruri istifadəyə yararlı tibbi avadanlıqların, dərman vasitələrinin və mütəxəssislərin olmaması müşahidə olunur. Bundan əlavə, milli qanunvericilikdə məhkumların pullu tibb müəssisəsinə müraciət etmək hüququ təsbit olunmuşdur (CİM-nin 93.6-cı maddəsi). Belə ki, bu xidmətin ya məhkum tərəfindən, ya da onun qohumları tərəfindən ödənilməsi tələb olunur. Hesab edirik ki, belə normadan istisna mütləq şəkildə nəzərdə tutulmalıdır: Sağalmaz və ya hər hansı ağır xəstəliyi olan məhkum qadına ödənişli tibbi xidmətin göstərilməsi insan hüquqları baxımdan doğru deyil. İHAM-ın təcrübəsindən tədqiqat zamanı gətirdiyimiz nümunələr (Gülay

Çətin Türkiyəyə qarşı işi) də bunu bir daha təsdiq edir. Ona görə də qanunvericilikdə belə hallar üçün istisna kimi tibbi xidmətin dövlət hesabına həyata keçirilməsinin təsbiti məqsədəuyğundur.

3. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş qadınların vəziyyətini tənzimləyən beynəlxalq standartların və onların həyata keçirilməsi təcrübəsinin təhlili əsasında belə qənaətə gəlmək olar ki, beynəlxalq normalar bütövlükdə azyaşlı uşaqları olan qadınların müdafiəsinə yönəlmişdir. Əslində mövzumuz məhkum qadınlar olsa da, belə fərqləndirmənin bərabərlik hüququ aspektindən düzgün olmadığını hesab edirik. Valideyn qadınlara bir çox güzəştlərin verilməsi milli hüquqda da davam edir və belə tənzimləmələrdə atanın rolu qətiyyən nəzərə alınmır. Fikrimizcə, bu heç də uşağın qayğısına qalmaqla bağlı normalardan irəli gəlməsi kimi əsaslandırmaya istinad etməməlidir. Tədqiqat zamanı çəkdiyimiz bir çox misallar və təcrübi nümunələr əsasında deyə bilərik ki, həm beynəlxalq, həm də dövlətdaxili hüquqda bu istiqamətdə olan normalar təkmilləşdirilməli, sırf valideyn-uşaq münasibətlərindən irəli gələn münasibətlərdə qadınlara üstünlük verilsə də, kişilər tamamilə istisna edilməməlidir.

4. Respublikamızın cəzaların icrası qanunvericiliyində məhkumların hüquqi vəziyyəti anlayışından istifadə olunur. Lakin mahiyyət etibarilə bu, hüquqi status kimi hüquq, vəzifələr və qadağaları ehtiva edir. Sadəcə olaraq, məhkumların xüsusi hüquqi statusa malik olduqlarını nəzərə alaraq, onlar həm bütün vətəndaşların malik olduqları həm də sırf vəziyyətindən irəli gələn hüquq və azadlıqlara malikdirlər, vəzifələri daşıyırlar.

5. Bu gün cəzaçəkmə müəssisəsinin müdiriyyəti ilə məhkum qadın, cəmiyyət və azadlıqdan məhrumetmə yerlərindən azad edilmiş şəxslər arasında qarşılıqlı əlaqə forması əsaslı əhəmiyyət kəsb edir, çünki məhkum edilmiş qadınla cəmiyyəti bir-birindən ayrı-seçkilik ayırdıqda ən humanist və savadlı qanun acizdir. Cəzaların icrası ilə bağlı milli təcrübədə bu kateqoriyadan olan məhkumlar üçün cəzaçəkmə şəraitinin yaxşılaşdırılması məqsədilə sosial xidmət işçiləri və penitensiar sistemdə çalışan kadrlar üçün treninqlər, seminarlar, məsləhətləşmələrin aparılması üçün proqramlar işlənib hazırlanmalıdır, məhkum qadınlar üçün islah müəssisələrinə

işləməyə göndərilən əməkdaşların müvafiq proqramlar üzrə yenidən hazırlanması təmin edilməlidir. Bundan əlavə, beynəlxalq standartlar və BMT-nin üzv ölkələrə dəfələrlə etdiyi çağırışlar nəzərə alınmaqla azadlıqdan məhrum etmə cəzalarının icrası prosesində gender bərabərsizliyinin aradan qaldırılması üçün məhkum qadınların xüsusi psixofizioloji xüsusiyyətlərini və ehtiyacları, habelə onların uşaqlarının maraqları nəzərə alınmalıdır.

6. Azərbaycan qanunvericiliyi sağlamlıq vəziyyətinə görə, şəxsi təhlükəsizliyini təmin etmək məqsədilə məhkumların cəzasını çəkmək üçün başqa ərazidə yerləşən cəzaçəkmə müəssisəsinə göndərilməsini məqbul sayır. (AR CİM 65.1.-ci maddə). Belə dəyişikliklər məhkumların cəza çəkmək üçün evlərindən yüzlərlə kilometr uzağa göndərilməsinə imkan yaradır ki, bu da şübhəsiz ki, onların ailələri ilə əlaqə saxlamaq, cəzaçəkmə müəssisələrinə uyğunlaşmaq, sonradan azadlığa çıxdıqdan sonra yenidən sosiallaşmaq hüququnu pozur. Bu hal nəinki islah müəssisələrində olan qadınların uyğunlaşması, məhkum olunmuş qadınların bütün azadlıqdan məhrum etmə müddətində islah edilməsi proseslərinə mənfi təsir göstərir, həm də yaxın qohumları və uşaqları ilə sosial əlaqələrin olmaması səbəbindən həm qısa, həm də uzunmüddətli görüş hüququndan istifadə imkanlarını məhdudlaşdırır. Məhkum qadınların qohumlarının səfər üçün nəqliyyat xərclərini təmin edə bilməməsi görüş hüququnun pozulmasının əsas səbəbi kimi izah edilə bilər. Çox təəssüf ki, araşdırma zamanı yaşayış yerinə yaxın cəza evinə yerləşdirilmə ilə bağlı dəqiq statistik rəqəmlər əldə etmək mümkün olmamışdır. Fikrimizcə, milli tənzimləmədə nəzərdə tutulan belə yerdəyişmələr zamanı görüş hüququnun təminatı məqsədilə nəqliyyat xərclərinin dövlət hesabına ödənilməsi təsbit olunmalıdır.

7. Hesab edirik ki, məhkum qadınların məlumat almaq hüququ ilə bağlı qanunvericiliyin yanaşmasında bir çox qüsurlar vardır. Tənzimləmələr sanki birtərəfli xarakterə malikdir. Məhkumların məlumat hüquqları bəyan olunsa da, cəzaçəkmə müəssisəsinin rəhbərliyinin məlumat vermək vəzifəsi ilə bağlı müddəalar nəzərdə tutulmamışdır. Qapalı məkanda saxlanılmasını nəzərə alsaq, məhkum qadınların çox vaxt bir çox hüquqlarından xəbərsiz olması onların həmin hüquqdan istifadə etməməsi ilə

nəticələnir. Ona görə də məhkumlarla tərbiyə işinin bir hissəsi onların öz hüquq və azadlıqları ilə bağlı maarifləndirməsi təşkil etməlidir. Bu, həm normativ qaydada tənzimlənməli, həm də təcrübədə tətbiq olunmalıdır.

8. Müasir cəmiyyət üçün daha çox istifadə olunan hüquqlardan biri də ifadə azadlığıdır. Respublikamızın cəzaların icrası qanunvericiliyində məhkumların intizam təcridxanalarına keçirildiyi zaman onların bu azadlığı məhdudlaşdırılır. Çünki telefon danışıqları, kinofilmlərə və televiziya verilişlərinə baxmaq qadağan edilir (CİM-nin 126-cı maddəsi). Fikrimizcə, belə yanaşma düzgün deyil və intizam tədbirinin məqsədinə uyğun gəlmir. Eyni zamanda, məhkuma qoyulan qadğalar onun ifadə azadlığını pozur. Belə sərt normaların qanunvericilikdəmn çıxarılması daha məqsədəuyğundur.

9. Milli normaların araşdırılması zamanı internet əlyetərliyi təhlil olunarkən, qanunvericilikdə məhkumların internet informasiya ehtiyatlarından istifadəsi ilə bağlı heç bir normaya rast gəlinməmişdir. Təbii ki, bu, məhkumların cəzaçəkmə müəssisəsindən kənara məlumat ötürməsi və ya əksinə prosesin baş verməsinin qabağının alınmasına xidmət edir. Lakin nəzərə alsaq ki, məhkum qadınların görüş, videogrüş, telefon danışığı hüquqları vardır, bu cür əsaslandırma yanlış ola bilər. Fikrimizcə, məhkum qadınların dövlət orqanlarının internet informasiya ehtiyatlarına əlyetərliyi təmin olunsa, daha yaxşı olar. Bu, bir tərəfdən onların öz hüquq və azadlıqları haqqında məlumatları daha asan əldə etməsinə kömək edəcəkdir. Digər tərəfdən isə məhkum qadınların tərbiyə işinə öz töhfəsini verəcəkdir. Təbii ki, burada müxtəlif sosial şəbəkələrə qoşulma istisna olunur.

10. Azərbaycan qanunvericiliyi birinci dəfə məhkum olunmuş qadınlar əvvəllər azadlıqdan məhrum etmə cəzasını çəkmiş qadınlardan ayrı saxlanılmasını tələb edir. Fikrimizcə, məhkum qadınların cəzaçəkmə müəssisələrində yerləşdirilməsi yalnız bu meyarla aparılmamılıdır. Belə ki, məlumat bazalarında təsnifat zamanı qadınların törətdiyi cinayətin bütün halları, xüsusilə qurbanın təqsirli əməlləri, əməlin zorakılığa reaksiya olaraq törədilməsi və s. kimi məqamlara xüsusi diqqət yetirilməlidir. Həmçinin qadın məhkumların yerləşdirilməsi zamanı da onların cinayətdə təqsirlilik

səviyyəsinə xüsusi önəm verilməlidir. Zorakılıq qurbanı olmuş və nəticədə adam öldürmüş bir qadınla öz həyat yoldaşını əmlakını əldə etmək məqsədilə öldürmüş qadınını eyni otaqda yerləşdirilməsi heç düzgün deyil. Avropa Həbsxana Qaydaları da yalnız bir-biri ilə əlaqə saxlamağa uyğun olan məhkumların yaşayış yerini bölüşməli olmasını müəyyən edir. Qeyd edək ki, belə differensiallaşdırmanın aparılmaması statistik göstəricilərin toplanmasında da çətinlik törədir. Ona görə də milli qanunvericilikdə ayrı saxlanma şərtlərinin daxilinə qeyd edilən əsaslar da daxil edilməlidir.

11. Məhkum qadınların saxlanma şəraiti ilə bağlı başlıca problemlərdən biri də sıxlıq problemidir. Hüquqi tənzimləmələr beynəlxalq normalara uyğun say müəyyənləşdirsə də, faktiki olaraq qadın həbsxanalarında vəziyyət heç də ürəkaçan deyil. Bu da məhkum qadınların hüquq və azadlıqlarının təminatı baxımdan bir çox problemlər meydana gətirir. Həddindən artıq sıxlıq həbsxana infrastrukturunu çətinləşdirir, islah xidmətlərinə maneə törədir, yoluxucu xəstəliklərin yayılmasına səbəb olur və daha çox intizamsızlıq və zorakılıq halları və həbsxana işçilərinin qida paylanması, təhlükəsizlik və mühafizə kimi gündəlik vəzifələrə yönəldilməsi daxil olmaqla, həbsxana rəhbərliyi üçün çoxsaylı problemlərə gətirib çıxarır. Ombudsmanın illik məruzələrində də qeyd olunan problem dəfələrlə vurğulanır. Hesab edirik ki, sıxlıq probleminin həlli üçün yeni qadın cəzaçəkmə müəssisələrinin tikilməsi işi tezləşdirilməlidir.

12. Məhkum qadınların sosial, psixoloji, bioloji keyfiyyətlərini nəzərə alaraq, qadınlar üçün nəzərdə tutulmuş cəzaçəkmə müəssisələrində kişi əməkdaşların çalışması qanunvericiliklə birmənalı şəkildə yol verilməməlidir. Bu, həmçinin nəinki milli təcrübəmizdə, dünya dövlətlərində həbsxanalarda qadınlara qarşı cinsi zorakılıq hallarının qarşısının alınmasına yönəlmişdir.

13. Azadlıqdan məhrum etmə cəzası kişilərlə müqayisədə qadınlara daha çox psioxoloji təsir göstərir. Ona görə də məhkum qadınlarla tərbiyə işinin təşkili ilə bağlı normalara penitensiar psixoloqların cəlb olunması məsələsi də daxil edilməlidir. Həmçinin bu cür ixtisaslaşmış kadrların hazırlanması işi də təşkil olunmalıdır.

14. Reabilitasiya xidməti sisteminin vahid məqsədlə birləşmiş dövlət, özəl, ictimai, dini, xeyriyyə və digər təşkilat və qurumların vahid məkanı olduğunu, keçmiş məhkumların sosial adaptasiyası üçün optimal şəraiti təmin etdiyini nəzərə alaraq hesab edirik ki, aşağıdakı müəyyən şərtlər olduqda o səmərəli fəaliyyət göstərə bilər: vahid reabilitasiya məkanının təşkilində idarələrarası qarşılıqlı əlaqə; bu fəaliyyətin elmi, metodik, kadr təminatı; xidmət və konkret islah müəssisəsi səviyyəsində reabilitasiya prosesi subyektlərinin hərəkətlərinin əlaqələndirilməsi. Dövlət təşkilatları, bələdiyyə təşkilatları, ictimai təşkilatlar, əmək kollektivləri bir-birini tamamlamalıdır. Əmək kollektivlərinə, ictimai təşkilatlara imkan verilməlidir ki, azad edilmiş insanların məsuliyyətini öz üzərinə götürüb, onlara kömək etməyə çalışsınlar. Belə ki, hər bir şəhərdə azadlıqdan məhrum etmə yerlərindən azad edilmiş şəxslər üçün xüsusi qəbul otaqlarının yaradılması məqsədəmüvafiqdir. Reabilitasiya işində qabaqcıl təcrübələrdə istifadə olunması məqsədəmüvafiqdir. Tədqiqatımızda uğurlu təcrübə kimi Böyük Britaniyanın Məhkumlar üçün Məsləhət Xidməti (PAS) qeyd olunmuşdur.

15. Milli-hüquqi tənzimləmələrdə cəzaçəkmə müəssisələrinin fəaliyyətinin yoxlanması ilə məşğul olan orqanlar qeyd olunmuşdur. Hesab edirik ki, qapalı məkan olmasını nəzərə alaraq, belə nəzarət tədbirləri gücləndirilməlidir. Bunun üçün monitorinq qruplarının yaradılmasını təklif edirik ki, onların tərkibində yalnız dövlət orqanlarının əməkdaşları deyil, həm də icitmaiyyət və media nümayəndələri iştirak etməlidir. Belə qrupların üzvləri sırasında hüquqşünaslarla yanaşı, tibb işçilərinin, psixoloqların, texniki bilikləri olan şəxslərin də olması lazımdır. Monitorinqlərin mütəmadi keçirilməsi mövcud problemlərin aradan qaldırılmasına öz töhfəsini verə bilər.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. International standards affecting the enforcement of sentences for women sentenced to imprisonment // International law and integration problems (Scientific-Analytical Journal), - 2020. № 1 (59), - pp. 66-74.

2. Azadlıqdan məhrumetmə yerlərində saxlanılan qadınların sağlamlığının qorunması problemləri və onların həlli yolları // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2020. №1 (25), - s. 24-31.
3. Azadlıqdan məhrumetmə yerlərində cəza çəkən qadınlara COVİD-19-un təsiri haqqında // - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və Azərbaycanın inkişaf strategiyası" mövzusunda elmi-nəzəri konfrans, - 07 may 2021. s. 111-113.
4. Проблема ресоциализации женщин в местах лишения свободы в период их реабилитации и после освобождения: пути решения // - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının təşkilatçılığı ilə keçirilən "Müasir dövrdə daxili işlər orqanları üçün kadr hazırlığını həyata keçirən xüsusi təyinatlı ali təhsil müəssisələri: mövcud vəziyyət və perspektivləri" adlı beynəlxalq elmi-praktiki konfrans, - 26 may 2021. s. 70-72.
5. Provision of the principle of the best interests of the child in relation to pregnant women and women with young children in places of deprivation of liberty // - Turkey: "International Asian Congress On Contemporary Sciences-V", 1-2 of June, 2021. pp. 276.
6. Məhkum qadınların rast gəldiyi risk faktorları və riskin azaldılması tədbirləri // - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının təşkilatçılığı ilə keçirilən "Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün konstitusiya əsasları" adlı respublika elmi-praktiki konfrans, - 5 noyabr, 2021. pp. 452-460.
7. Provision of information rights of persons convicted of deprivation of liberty: subjective problems of implementation // - Baku: International conference: XXI century, new challenges and modern development tendencies of law, - 2021. pp. 215-216.

8. Azyaşlı uşaqları olan qadınların xarici ölkələrin penitensiar müəssisələrində saxlanılmasının və yenidən sosiallaşmasının xüsusiyyətləri // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2021. №1 (29), - s. 44-49.
9. Məhkum qadınların şəxsiyyətinin xüsusiyyətləri və cəzanın icrasının fərdiləşdirilməsinə təsiri // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2021. №3 (31), - s. 97-103.
10. Policies and practices that increase the degree of risk to convicted women and cause // Legal Journal "Law of Ukraine", - 2021. №10, - pp. 211-221.
11. Məhkumların hüquqlarının təmin edilməsi problemi // - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası: "Müasir Azərbaycan dövlətinin formalaşmasında Heydər Əliyevin rolu" adlı respublika elmi-praktik konfrans, - 5 noyabr, 2022. s. 71-73.
12. Məhkum qadınların sosial-demoqrafik xüsusiyyətləri // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2022. №3 (35), - s. 57-64.
13. Məişət zorakılığına qarşı mübarizə: nəzəri aspektlər // - Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyası: "Müasir dövrdə insan hüquqlarının aktual problemləri" adlı beynəlxalq elmi-praktik konfrans, - 2022. s. 396-400.
14. Qadın məhkumların hüquqi müdafiəsinə dair beynəlxalq-hüquqi tənzimetmənin formalaşması və inkişafı // "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü il dönümünə" həsr olunmuş respublika elmi-praktiki konfrans, - 2023, s. 207-210.
15. The problem of protecting the rights and legitimate interests of convicted women // - Turkey: "IV. Baskent International Conference On Multidisciplinary Studies", - August 4-6, 2023. pp. 1435-1440.
16. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınların hüquqi vəziyyətinin tənzimlənməsi üzrə xarici dövlətlərin təcrübəsi // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2023. №3 (39), - s. 53-62.

Dissertasiyanın müdafiəsi “__8__” ____may____ 2024-cü il tarixində saat __10:00__ Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-23. I korpus, auditoriya 608.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “__8__” ____aprel____ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.04.2024

Kağızın formatı: A5

Həcm: 44940

Tiraj: 100